Xəlilova Aydan. Doğma torpağa sevgisi onu ali məqaman ucaltdı // Azərbaycan : qəzet. - 2022. - 2 noyabr. - № 240. - S. 8.

Multikultural və tolerant ölkə olmaq dövləti gücləndirir, onu yüksəklərə ucaldır. Azərbaycan da deyilənlərin timsalında müxtəlif xalqların birgə yaşadığı ölkələrdəndir. Bu rəngarəngliyi yurdumuzun torpaqlarını gəzməyə başladığımız andan hiss edirik: şimaldan cənuba, şərqdən qərbə doğru hər addımda görürük... Azərbaycanda etnik qruplarla birgə yaşayış ilkin Orta əsrlərdən bəri qorunub saxlanan milli dəyərlərdəndir. Onların hüquqlarının, mənəvi dəyərlərinin qorunmasına ölkəmizdə xüsusi diqqət göstərilir. Etnik qruplar da öz növbəsində bu dövlətin sadiq nümayəndələri kimi ümummilli məsələlərdə hər zaman canfəşanlıqla öndə yer alıblar. Birinci və İkinci Qarabağ müharibələri də bunun bariz təcəssümüdür.
Vətən müharibəsi şəhidlərinin milliyyətinə nəzər salsaq, görərik ki, onların sırasında Azərbaycanda kompakt halda yaşayan etnik qrupların nümayəndələri də geniş yer alır. O oğullar ki, bu vətənin suyu, çörəyi ilə boya-başa çatıb, gərək olduqları məqamda da canlarını vətənə qurban veriblər. 44 günlük Vətən müharibəsində qəhrəmancasına savaşıb şəhidlik zirvəsinə ucalan tat millətindən 19 yaşlı Elməddin Telman oğlu Abdullayev də həmin igidlərdən biridir. Qəhrəmanımızın həyat və döyüş yolu ilə tanış olmaq üçün tatların kompakt yaşadığı şimal rayonlarımızdan biri olan Qubanın Qam-qam kəndinə üz tutduq.

## Hər dəfə evin qapısı açılanda elə bilirəm ki, Elməddin gəldi

Elməddin Abdullayevin vaxtı ilə küçələrində oynadığı, məktəbində oxuduğu, əsl igid kimi böyüdüyü yurdun cığırları ilə irəliləyib öz əlləri ilə tikib-qurduğu evin qarşısında dayanırıq. Darvazanın ağzında bizi "özü" (şəkilli lövhəsi) qarşılayır. Elməddin hərbi xidmətə yollanmazdan əvvəl bünövrəsini qoyduğu, daşını qaldırdığı bu evdə qurmuşdu xəyallarını. Burada başlayacaqdı gənc həyatının yeni mərhələsi. Ancaq o, vətənin mərd oğullarına qoşularaq ədəbiyaşar zirvəyə ucaldı... Vətən uğrunda gedən savaşda canını fəda edən Elməddin Abdullayev 2001-ci il fevralın 13-də Qubanın Qam-qam kəndində anadan olub. Orta təhsilini şəhid Mübariz Abdullayev adına Qam-qam kənd tam orta məktəbində aldıqdan sonra 2019-cu ildə hərbi xidmətə yollanıb. Tərxis olunmasına sayılı günlər qalanda İkinci Qarabağ müharibəsi başlayıb və o, könüllü döyüşə yollanıb.
Qapının kandarından həyətə daxil olar-olmaz sevinc dolu baxışlarla atası Telman Abdullayev bizi qarşılayır. Deyir ki, hər dəfə bu evin qapısı açılanda elə bilirəm ki, Elməddin qapıdan içəri girib ata deyib boynuma sarılaraq: "Axı bura mənim yox, onun evidir. Hələ evi özü tikməyə başlayanda həmişə bu həyətdə onu görüb səsini

eşidərdim. İçəri girən kimi onu səsləyər, hansı işləri gördüyü ilə maraqlanardım. İndi isə səssiz-sədasız qalan bağça və kimsəsiz otaqların daş divarları öz səsimi özümə qaytarır. Elə hey gözləyirəm ki, bəlkə bir gün Elməddin bu qapıdan içəri daxil ola..."
Anası Tahirə Abdullayeva deyir ki, Elməddin uşaqlıqdan bəri çox sakit təbiətli olub. İstər məktəbdə, istərsə də dostları arasında seçilirdi. Ən böyük arzusu isə hərbçi olmaq idi. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan zaman anasına deyib ki, xidmətini başa vurub ordu sıralarında qalıb vətənə xidmət etmək istəyir. Anası oğlunun vətən sevgisindən söhbət açarkən vurğulayır ki, ilk gündən vətənpərvərliyi ilə seçilməyə başlayıb: "Elməddini əsgərliyə yola salanda çox narahat idim. Qayğı ilə böyüdülən uşaq orada çətinliklərlə üzləşə bilərdi. Ancaq vətən sevgisi heç zaman görmədiyimiz qədər onu ruhlandırmış, cuşa gətirmişdi. Hətta əsgərlik yaşının yetişməsini böyük səbirsizliklə gözləyirdi. Gedən zaman isə bizə demişdi ki, sizi qazandığım nailiyyətlərə sevindirəcəyəm, siz mənimlə fəxr edəcəksiniz".

Bir nigara vurulmuşdu

Dediklərini bir-bir icra edən Elməddin Abdullayev 2020-ci ilin yanvar ayında hərbi xidmətdən məzuniyyətə buraxılıb. Qazandığı nailiyyətlərin həkk olunduğu tərifnamələrlə yurduna üz tutub. Elməddinin ailəsi ilə birlikdə keçirdiyi son görüş də elə bu tarixdə yaşanıb. Telman Abdullayev qeyd edir ki, yanvar ayında gələcəyini bilsələr də, onlara dəqiq vaxtı deməyib: "Bir gün qapı açıldı, gələn Elməddin idi. Bəzən arzulayıram ki, kaş son gəlişini əbədiləşdirə biləydim. Həmin anları təkrar yaşadığım zaman bəlkə içimdəki həsrət bircə damcı azalardı".
Atasının sözlərinə görə, Elməddin hərbi xidmətdə olan zaman könlünü bir nigara verib. Qayıdar-qayıtmaz onunla evlənib sevilməyin səadətini yaşamaq istəyirdi. Elməddini gözündən aralı qoymayan Zəbiyyət nənəsi isə ona təmtəraqlı toy edəcəyini söz veribmiş: "Hər şey hazır idi, bircə Elməddin geri dönmədi. Bizi və arzularını qoyub vətənə üz tutdu. İstədi ki, torpaqlarımızın geri qaytarılması uğrunda gedən döyüşlərdə onun da payı olsun. O, təkcə özünü yox, bizi də fəxarətləndirdi, ucaltdı, elə bir vəzifəni boynuna götürdü ki, bir ömür qəhrəman oğlumuzla duya biləcəyimiz qürur hissini yadigar qoydu".

Xatirələrdə yaşadılan gənc ömür

Elməddinin hərbidən tərxis olunmasına sayılı günlər qalmış Vətən müharibəsi başlayıb. Vətənə sonsuz məhəbbətlə bağlanan şəhidimiz fərqlənən

pulemyotçulardan olub. Onlar dövlətimizin ərazi bütövlüyü naminə ön sıralarda irəliləyirdilər.
Ailəsi ilə son telefon danışığı sentyabrın 27-si olub. Evlərinə zəng edən igid valideynlərindən halallıq istəyib. Telefon danışığı qısa çəksə də, ailə bir ömrə bərabər dəqiqələri yaddaşlarında bitib-tükənməz dialoq kimi saxlayıb.
Tahirə xanım deyir ki, sonuncu danışıqlarından sonra səs-səda gəlməyib: "Elə yeni döyüş başlamışdı ki, Elməddinin şəhid olması xəbəri ilə qarma-qarışıq fikirlərimizə, yüzlərlə suallarımıza cavab tapılmışdı".
Sözünü sona çatdırmadan Tahirə ananı fikir aparır. Əlləri titrəyir, bənizi solur. Birdən boğazını arıtlayıb yenidən danışmağa başlayır: "Elməddinim şəhid olan gecə dəhşətli bir yuxu görmüşdüm. Tər-qan içində yuxuda eşitdiyim səsə oyanıb tez yoldaşımı da səslədim. Təkid etdim ki, gedib küçə qapısını yoxlasın. Həyəcanla dedim ki, oğlumuz gəlib, qapını döyür, biz də bayaqdan eşitmirik. Telman tez-tələsik qalxıb qapıya tərəf getdi. Ancaq heç kim yox idi..."
Bəzən candan can qopanda həmin an insana hisslərlə həyan olur. Eyniylə Tahirə xanımın yaşadığı gecə kimi... O gecə ki, Abdullayevlər övladlarını Vətənə qurban vermişdilər.
Əsgər Elməddin Abdullayev 30 sentyabr 2020-ci ildə Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.
İndi Elməddinin tikintisini yarımçıq qoyub getdiyi evin otaqlarını onun şəkilləri, xatirələri bəzəyir. Mənzili seyr edərkən stendə qoyulan ətir diqqətimizi çəkdi. Bu an Tahirə xanım yaxınlaşıb ətrin oğluna son aldığı hədiyyə və ən sevdiyi ətir olduğunu söyləyərək gözyaşlarına qərq oldu. Elə ananın üzərindən də həmin ətrin qoxusu gəlirdi...